# İLAHİYYAT

**UOT 930.85**

## İSLAM MİNİATÜR SƏNƏTİNDƏ PEYĞƏMBƏR MÖVZUSU

**Səbinə NEMƏTZADƏ**[*]

***Açar sözlər:*** *İslam, Quran, miniatür, əlyazma, peyğəmbər, merac.*

### Giriş

Əlyazma kitabların mətnlərini açıqlamaq məqsədi ilə çəkilmiş kiçik ölçülü rəngli rəsmlərə miniatür rəsmlər deyilir. Orta əsrlər Avropasında hazırlanan bəzi əlyazma kitabların bölmə başlıqlarındakı mətnin ilk hərfini "minium" adlanan qırmızı-turuncu maddə ilə bəzəyirdilər. Bu bəzəməni "miniatüra" adlandırırdılar. Miniatür termini də, çox güman ki, buradan qaynaqlanmışdır. Zaman keçdikcə bu termin latın dilindəki "minor" (kiçik) sözünə uyğun olaraq, XVI-XIX əsrlərdə kiçik ölçülü kağız, perqament, fil dişi kimi materiallar üzərində işlənən rəsmlər üçün də istifadə edilmişdir.

İslam əlyazma sənətində miniatürlərə təsvir, miniatür rəsmləri çəkən sənətkara isə müsəvvir və ya nəqqaş, nəqqaşların çalışdığı emalatxanaya isə nəqqaş-xanə deyilmişdir.

Prof. dr.Banu Mahir qeyd edir ki, müsəlman fəthlərindən sonra İranda Zərdüşt rahiblərinin əlində olan bəzi rəsmli əlyazmaların müsəlman sənətkarlara nümunə ola biləcəyi düşünülsə də, İslam miniatürlərinə əsasən Manixeizmin təsiri etdiyi fikri daha çox yayılmışdır. Uyğurların paytaxtı Xaçoda (Şərqi Türküstan) alman alimi Albert von Le Coq tərəfindən ortaya çıxardılaraq 1923-cü ildə işıq üzü görən Manixeist Uyğur miniatürlərindən fiqur növləri və kompozisiya anlayışı baxımından Səlcuqlu miniatürlərinin təsirləndiyi qəbul edilir (9, s.125).

Miniatürlər əlyazmada illüstrasiya xüsusiyyəti daşımaqla yanaşı mətndəki bir çox hadisələrin, bir çox məsələlərin interpretasiyası kimi təqdim olunurdu. Heç bir müsəvvir çəkdiyi rəsmləri reallıqda olduğu kimi verməyə çalışmırdı. İslam dünyasında canlı varlıqların təsviri heç də münasib sayılmamışdır.

### I. İslamda təsvir

Əslində Quranda açıq bir təsvir qadağası yoxdur. Bu mövzu ilə bağlı fikirlər Hz.Peyğəmbərin söylədiyi bəzi sözlərindən qaynaqlanır.

İslamda surətin qadağan edilməsinin səbəbi olaraq Hz.Peyğəmbərin "Allah surət çəkənləri çəkdikləri surətlərə ruh üfləyincəyə qədər əzab edəcəkdir. Ruh üfləmələri də zatən mümkün deyil" və "Qiyamət günündə ən şiddətli cəzaya məhkum olanlar Allahın yaratmasına - yaratdıqlarına - bənzəməsinə çalışanlardır" kimi hədislərdən çıxış edilərək, "Yaratma barəsində Allaha bənzəməyə çalışmaq" problemi göstərilmişdir. Belə görünür ki, bu əsaslandırmanın yanlış olmaması ilə yanaşı, surət qadağasının əsl illəti, İbn əl-Ərəbinin də dəqiqliklə ifadə etdiyi kimi, budur: "Cahiliyyə ərəblərinin bütlərə tapınma adətləri vardı və bu bütləri öz əlləri ilə təsvir edib sonra onlara ibadət edirdilər. İslamiyyət bütə tapınmağa vəsilə olan şeyləri aradan qaldırmaq surəti ilə tövhid sisteminin qorunmasına səy göstərmişdir" (4, s.102).

İslam dini tövhid dinidir. Ərəblər öz əlləri ilə çəkdikləri rəsmlərə, düzəltdikləri bütlərə ibadət edirdilər. Hz.Peyğəmbər ərəblərin yenidən köhnə vərdişlərinə qayıdacaqları narahatlığı ilə bu vərdişləri xatırladan şəkil və heykəllərin qadağan edilməsini münasib saymışdı.

[*] *İlahiyyat elmləri üzrə fəlsəfə doktoru, dosent, AMEA akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*e-mail: nematzadesabina@yahoo.com*

Bir çox alimlər rəsmə qarşı şiddətli təhdid ehtiva edən qadağaların İslamın erkən mərhələlərində olduğunu, sonra bu təhdidin get-gedə yüngülləşdiyini şərh edərkən qadağa səbəbinin yuxarıda göstərilən narahatlıqla bağlı olduğu fikrini irəli sürmüşlər.

Araşdırmalar göstərir ki, İslam mədəniyyətində rəsm sənəti yalnız VII və VIII əsrlər arasında mövcud ola bilmişdir. Bu dövrdə fəth edilən yeni torpaqlardakı qədim mədəniyyətlərin yüz illər boyunca köklənmiş rəsm ənənələri ilə təmas yaranmış, bunun nəticəsində də Qübbətü-s Səhra (691), Şam Əməviyə məscidi (705-721), Qüseyri Əmra (711-715), Qəsrü-l Xeyrü-l Qərbi (728) kimi dini və mülki binaların divarlarına Gec Ellin və Sasani sənət ənənələrinin təsirini əks etdirən naturalist tərzdə rəsmlər və mozaikalar işlənmişdir. IX əsrdə isə bir dəyişiklik baş verir: yaradılmış varlıqların bənzərlərini təsvir etmək bir anlamda Allahı təqlid etmək kimi başa düşülür. Məhz bu dövrdən hədislərin şərhinə əsaslanan qadağa kəskinləşir, divar rəsmləri və mozaikalar yerini kitab rəsmlərinə verir. Abbasilər dönəmindən əlyazma kitablarda illüstrasiyaların yer almasının səbəbi rəsm qadağası ilə ziddiyyət təşkil etməyən bir İslam düşüncəsinin formalaşması ilə əsaslandırılır (10, s.96-97; 8, s.16).

Tarixdə rəsmin qətiyyətlə qadağan olunduğunu irəli sürən fəqihlər, mütəfəkkirlər vardır. Lakin əksəriyyət bu qadağanı bütövlükdə bir inkar deyil, müəyyən bir sərhədin qoyulması kimi anlamışdır. Allahın rəsulu gözəl sənətlərin heç birini qadağan etməmişdir. Lakin sənət duyğusunun bəzi təzahür şəkillərinə maneələr, yaxud sərhədlər qoymuşdur ki, bu da sənətin daha çox gözəlliyinə və mükəmməlliyinə xidmət etmək kimi anlaşılmışdır.

Sənətşünaslıq doktoru Cəmilə Həsənzadə qeyd edir ki, XIII əsrdə yaşamış fəqih İbn Dəqiq əl-İdin qeyd etdiyi kimi, İslam dininin əsasları Məhəmməd peyğəmbər tərəfindən bəyan olunduqdan yeddi əsr sonra onun bütpərəstliklə mübarizəsi ilə bağlı izləri daha mülayim şəkildə şərh edilərək, insan və heyvan təsvirlərinin öz əksini tapmış mozaika, freska və miniatürə aid edilmirdi. Lakin bu liberal dəyişikliklər artıq islam təsviri sənətinin fəlsəfəsini köklü şəkildə dəyişdirmək iqtidarında deyildi. Onun müəllifləri canlı həyatın konkretliyindən uzaqlaşaraq, bu sənət barədə ideal, əsasən fantastik təsəvvür formalaşdırmağa can atırdılar. Onlar avropalı rəssamlar kimi orijinalı təqlid etmir, real insanların, yaxud real əşyaların rəsmini çəkmir, əsas diqqəti sırf ideal obraza və rəmzə yönəldirdilər (3, s.17). Avropa rəsmi əşyanın müəyyən baxımdan görüntüsünü təqdim edər, bununla zaman içində bir anın, dondurulmuş bir hərəkətin və ya işığın təsirini rəsm edərkən, İslam sənəti hər zaman konkret bir vəziyyətin rəsmini ortaya qoymağa çalışırdı. Başqa sözlə, modern Avropa sənəti obyektləri öz halları ilə, olduqları kimi çəkməyə çalışdığı halda, İslam sənəti onları Tanrıya yaxınlıq baxımından, yaxud mümkün dərəcədə Onun qüdrətini izhar edəcək şəkildə göstərməyə çalışırdı (5, s.186-188).

İnsan surətinin təsvirinə gəlincə isə deməliyik ki, bir çox mütəfəkkirlərin qeyd etdiyi kimi, insanın rəsmi nə qədər mükəmməl bir şəkildə çəkilsə də, o rəsmdə eşitmə, görmə, düşünmə kimi keyfiyyətlər heç bir vəchlə öz əksini tapa bilməzdi. Bu prizmadan çıxış edən Turan Koç insan rəsminin çəkilməsini insana qarşı bir hörmətsizlik kimi dəyərləndirir və Caminin

*“Şəriət rəsmi yasaqlamışdır, çünki*
*Sənin gözəlliyini rəsm etmək imkansızdır”*

– beytinin İslam dünyasında rəsmə olan münasibəti əks etdirdiyini və məhz bu anlayışla müsəlman sənətkarın miniatürə yönəlməsi fikrini irəli sürür (5, s.188).

Əslində təsvirdə canlı və ya cansız varlıq deyə bir ayrı-seçkilik etməyin mümkün olmadığını söyləyən Nusret Çam bunu belə izah edir: “İstər insan, heyvan, quş kimi canlı olsun, istərsə də dağ, daş, ağac və bitki kimi cansız olsun, hər şeyi yaradan Allahdır. Bu səbəb ilə əgər Allahın yaratmaq gücü ilə rəqabət hissi olursa, bu sadəcə canlı varlıqların deyil, cansızların təsvirində də ortaya çıxa bilər. Məsələn, bəd niyyətli və primitiv xislətə malik olan müsəvvir yalnız insan rəsmini deyil, gözəl bir ağacı, bir çiçəyi, bir quşu və hətta bir qaya parçasını təsvir edərkən də Allahın yaradıcı sifəti ilə rəqabət halında ola bilər” (2, s. 37).

**II. Miniatür rəsmlərdə Peyğəmbər obrazı**

İslam miniatür sənətində dini-fəlsəfi ideya Quran və hədis işığında inkişaf etmiş,aləmin yaradılışı, Qurani-Kərim, Tövrat, İncil kimi üç böyük müqəddəs kitabdakı peyğəmbərlər, onların möcüzələri, onlarla bağlı önəmli hadisələr, qiyamət, cənnət, cəhənnəm kimi səhnələr, xəlifələr, imamlar və onlarla bağlı mövzular geniş şəkildə öz əksini tapmışdır.

Şübhəsiz ki, bu dini mövzular içində ən əhəmiyyətliləri peyğəmbərlərdir. Qurani-Kərimdə iyirmi beş peyğəmbərin adı çəkilir. Bunların böyük bir qismi Tövratda da yer alır. Bir hədisdə 316 peyğəmbər adı sadalanmışdır. Hədisdə 316 deyilsə də sayları 313-dür. Bu siyahıda Hz.Cabir, Hz.Yunis və Hz.Şəmunun adları iki dəfə keçir: 1.Adəm, 2.Şiit, 3.Nuş, 4. Kaynan, 5.Mehlail, 6.Mütəvəşih, 7.İdris, 8.Nuh, 9.Yunus, 10.Danyal, 11.Hud, 12.Ayhaq, 13.Mərdaim, 14.Şaru’, 15.Ərfəhşəd, 16.Salih, 17.Yunus, 18.Hadır, 19.İlyas, 20.Davud, 21.Süleyman, 22.Eyyub, 23.Danin, 24.Məmya, 25.Sabit, 26.Cabir, 27.Həmilan, 28.Zülkifl, 29.Üzeyir, 30.Loğman, 31.Lut, 32.Hanzalə, 33.Safvan, 34.İsan, 35.İbrahim, 36.İsmail, 37.İshaq, 38.Yaqub, 39.Yusif, 40.Şuayb, 41.Lətan, 42.Musa, 43.Xarun, 44.Yava, 45.Yuşa, 46.Qəlil, 47.Ərmiya, 48.İşmoil, 49.Elvun, 50.Azan, 51.Əzim, 52.Zabin, 53.Hürid, 54.Sazan, 55.Səfləyə, 56.Qaalib, 57.Şimas, 58.Şəm’un, 59.Fədad, 60.Kabad, 61.Aynad, 62.Sarim, 63.Avdun, 64.Saim, 65.Kəruk, 66.Yaşil, 67.Yasan, 68.Lahin, 69.Galsan, 70.Gədnan, 71.Rəşgin, 72.Lüg, 73.Latiyam, 74.Elmun, 75.Bərsəva, 76. Reşad, 77.Şer’yib, 78.Heybil, 79.Miylan, 80.İmran, 81.Herbib, 82.Şemanih, 83.Cerbib, 84.Sefan, 85.Sarih, 86.Sa’da, 87.Kil, 88.Aydun, 89.Avsaf, 90.Sadeyf, 91.Berva, 92.Vəhba, 93.Hey’at, 94.Hasım, 95.Adım, 96.Aris, 97.Misda, 98.Harbil, 99.Harkil, 100.İşmun, 101.İmsan, 102.Lebir, 103.Sebat, 104.İyad, 105.Reyhan, 106.Şeyh, 107.Mərqan, 108.Amdan, 109.Nuha, 110.Habban, 111.Velam, 112.Ba’yul, 113.Bestas, 114.Xətban, 115.İklik, 116.Kadim, 117.Evris, 118.Nasir, 119.Şərhil, 120.Huzeymə, 121.Makas, 122.Meftail, 123.Şeruhil, 124.Mədrək, 125.Harim, 126.Bari, 127.Cabid, 128.Zərqan, 129.Bercac, 130.Eskun, 131.Həzrayin, 132.Navi, 133.Ataf, 134.Eşbil, 135.Mehil, 136.Recil, 137.Şimtan, 138.Elfum, 139.Huveyled, 140.Sanuh, 141.Zamil, 142.Ramil, 143.Kilan, 144.Hadib, 145.Bazik, 146.Banım, 147.Hacim, 148.Camim, 149.Hahiz, 150.Rasil, 151.Vasim, 152.Radim, 153.Sadim, 154.Sev’an, 155.Hazan, 156.Sahid, 157.Sayhan, 158.Kelvan, 159.Sa’dem, 160.Ufran, 161.Gaayır, 162.Lahun, 163.Beldah, 164.Heydan, 165.Lavi, 166.Hira, 167.Nasi, 168.Hanik, 169.Hafih, 170.Kaşih, 171.Lafis, 172.Banir, 173.Haşim, 174.Hicam, 175.Hiran, 176.İsman, 177.Rahila, 178.Latif, 179.Bertofun, 180.Atan, 181.Avraid, 182.Mehtəmsar, 183.Sabigan, 184.Ercil, 185.Yəğbin, 186.Banil, 187.Kasim, 188.Mundah, 189.Racin, 190.Mihras, 191.Sahin, 192.Sarfan, 193.Meyhəmun, 194.Havdan, 195.Elbentun, 196.Vaad, 197.Rahyul, 198.Yeğban, 199.Yehur, 200.Havtayan, 201.Kamil, 202.Şemail, 203.Saad, 204.Buyurez, 205.Kezul, 206.Lutan, 207.Evis, 208.Şemmas, 209.Mə’nail, 210.Fərnuş, 211.Haczəm, 212.Advən, 213.Barun, 214.Rəvvan, 215.Meynəz, 216.Mə’yən, 217.Məzahim, 218.Banid, 219.Lami, 220.Ferdan, 221.Cabir, 222.Salum, 223.Aydan, 224.Xərban, 225.Tamil, 226.Mid’nan, 227.Hacrəm, 228.Lühanna, 229.Mehnəm, 230.Tabih, 231.Calük, 232.Gaabuh, 233.Meynan, 234.Kanuh, 235.Dəryan, 236.Sadim, 237.Cərrad, 238.Harkiya, 239.Nu'man, 240.Enmil, 241.Müzham, 242.Mebidas, 243.Mibsal, 244.Gaabin, 245.Kaşih, 246.Banuh, 247.Sasan, 248.Səmim, 249.Fəryuş, 250.Suhayib, 251.Rükün, 252.Qamir, 253.Sahiq, 254.Zahun, 255.İyab, 256.Sabah, 257.Arfun, 258.Mihlən, 259.Mərsam, 260.Gaalib, 261.Elyesa, 262.Abdullah, 163.Edrizin, 264.Advan, 265.Zehran, 266.Bayiq, 267.Tatir, 268.Xəvdin, 269.Kabudə, 270.Eşin, 271.Fətvan, 272.Sanid, 273.Abun, 274.Rabah, 275.Sayuh, 276.Məsluk, 277.Hican, 278.Vabun, 279.Revyan, 280.Mugayla, 281.Ayis, 282.Zahram, 283.Sabih, 284.Yatbu’, 285.Carih, 286.Suhib, 287.Sayxan, 288.Qılman, 289.Yuha, 290.Semyun, 291.Ardun, 292.Cevhər, 293.Yelbək, 294.Məbarig, 295.Qabil, 296.Cefdun, 297.Kənan, 298.Hasman, 299.Yəsma’, 300.Arfun, 301.Arfan, 302.Yahhın, 303.Nəsibnikasım, 304.Şəm’un, 305.Rasas, 306.Xail, 307.Əfleyun, 308.Şahım, 309.Əxbal, 310.Xəbac, 311.Zəkəriyya, 312.Yahya, 313.Cərcis, 314.Cəbnim, 315.İsa, 316.Mühəmməd. (1, s.112-113) Mətin Andın da qeyd etdiyi kimi, Hz.Zülqərneynin adı Quranda keçməsinə baxmayaraq, bu siyahıda yer almamışdır.

Qeyd etmək lazımdır ki, yuxarıda adları çəkilənlərin bir qismi miniatürlərdə zaman-zaman yer almışlar. Lakin təbii olaraq miniatürlərdə Hz.Məhəmməd mövzusu daha geniş yayılmışdır.

Dini mövzulu ən mühüm miniatürlü əlyazma Hz.Məhəmmədin həyatını əks etdirən altı cildlik "Siyer-i Nəbi"dir. Mətin And qeyd edir ki, təqribən 1595-ci ilə yaxın dövrdə III Murad İslamın erkən dövrlərinin tarixini və Hz.Məhəmmədin həyat hekayəsinin yazılıb miniatürlərlə təzyin edilməsini istəmişdir. Bunun üçün ən uyğun olan mətn Ərzurumlu Darir kimi tanınan Mustafa ibn Yusif ibn Ömər əd-Darir əl-Ərzənürrumminin XIV əsr türkcəsi ilə yazdığı "Siyer-i Nəbi" həm nəsr, həm də nəzm janrında yazılmış əlyazması əsas götürülmüşdür. Türk dilində olan bu əsərdə yalnız Qurani-Kərimdən olan ayələr ərəbcədir. Bu əsərin birinci, ikinci, altıncı cildləri Topqapı Saray Muzeyində H1221, H1222, H1223 şifrələri altında qorunub saxlanılır. Üçüncü cild "The New York Public Library"də Spencer kolleksiyasında yer alır. Beşinci cild Dublindədir (CBL 419). Bu əsərin surəti Tür İslam Əsərləri Muzeyində 1974 saylı şifrə altında qorunur.

"Siyer-i Nəbi" Hz.Məhəmmədin həyatı ilə bağlı bir əsər olması ilə yanaşı, bu kitaba sırf dini bir kitab gözü ilə baxılmır. Hz.Məhəmmədin möcüzələri, digər peyğəmbərlər, mələklər daha çox dini xüsusiyyətlər daşısalar da, Məhəmməd peyğəmbər bir dövlət adamı, igid bir cəngavər, bir sərkərdə idi. Qeyd etmək lazımdır ki, əsəri sifariş edən III Murad 1595-ci ildə vəfat etdiyində "Siyer-i Nəbi" hələ tamamlanmamışdı. Əsərin tamamlanması III Mehmedin dövründə həyata keçdi (1, s.295). Bu əlyazma nüsxəsində Hz.Adəm, Hz.Şit, Hz.İsmayıl, Hz.Yaqub, Hz.Yusif, Hz.Yəhya, Hz.Musa kimi peyğəmbərlərin də miniatür rəsmləri yer alır.

Hz.Məhəmmədin obrazı "Siyer-i Nəbi"dən başqa əsərlərdə də yer alır. Məsələn, Nyu Yorkdakı Pierpont Morgan Kitabxanasında M-466 şifrəsi altında saxlanılan Hz.Mövlananın həyatı haqqında yazılan "Səvakib-i Mənakib" əsərində Hz.Məhəmmədin təsviri olan iki miniatür vardır.

Dini mövzularla bağlı bir əhəmiyyətli əsər də Seyid Loğman Çələbinin "Zübdətü-t Təbarix" əsəridir. Bu əsərin miniatürlü olan üç əlyazması vardır. Onlardan biri Topqapı Saray Muzeyində, digərləri Türk İslam Əsərləri Muzeyində və Chester Beatty Kitabxanasında yer alır.

Daha bir dini mövzunu əhatə edən miniatürlü əlyazma Qələndər Paşanın "Falnamə"sidir. Topqapı Saray Muzeyində H1703 şifrəsi altında qorunub saxlanılır. İçərisində otuz beş miniatür rəsm vardır. "Əhvali qiyamət"əsəri də dini mövzulu məşhur əsərlərdəndir.

Miniatürlərdə peyğəmbər mövzusuna geniş yer ayrılmasını xüsusi qeyd etməliyik."İslamın qadağasına zidd olaraq müsəlman övliyalarından heç biri rəssamın amansız fırçasından xilas ola bilməmişdir!" – ingilis tədqiqatçısı Tomas Arnold belə yazırdı. "Çox güman ki, bu təsvirlərin əksəriyyəti təəssübkeş müsəlmanlar tərəfindən məhv edilib, lakin bu halda belə Məhəmməd peyğəmbərin təsvirləri qorunub saxlanılıbdır. Belə hadisələrdən biri Adəmdən başlayaraq Məhəmmədə (s.) qədər bütün peyğəmbərlərin həyatından bəhs edən "Qisas əl-ənbiya" ("Peyğəmbərlər haqqında qissələr") əsərinə çəkilmiş illüstrasiyalardır. İslamın tarixi din olması və Quranın daim müqəddəs tarixə müraciət etməsi, eləcə də peyğəmbər və övliya personajlarının təsvir edilə biləcək hər yerdə görünməsi bir faktdır. Belə ki, bir çox tarixi əsərlərdə, mistik və etik xarakterli nəzm və nəsr əsərlərində, həmçinin istənilən tarix külliyyatının başlanğıcında dini süjetləri görmək mümkündür, çünki müsəlman tarixçiləri öz tarixlərini yazarkən ilk öncə dini mövzulara yer verirdilər" (3, s.35-37).

İslam tarixi xüsusiyyətini daşıyan "Zübdətü-t təvarix" adlı əsər başda olmaqla Siyeri-Nəbi, cifr, qiyamət, təsəvvüf mövzulu əsərlərdə Tövrat, İncil və Quranda müəyyən peyğəmbər əhvalatlarını şərh edən olduqca çox miniatür vardır. "Zübdətü-t təvarix" peyğəmbər əhvalatlarından bəhs edən və günümüzə qədər üç nüsxəsi gəlib çatan ilk rəsmli Osmanlı əlyazmasıdır.

### III. Hz.Peyğəmbərin meracı

Sənət tarixçisi Banu Mahir qeyd edir ki, "Zübdətü-t təvarix"in rəsmli nüsxələrində yer alan Hz.Məhəmmədin meracı mövzusunda miniatürlərin yeni şərhlərlə təsvir edildiyi diqqəti çəkir. XIII əsrin sonlarından etibarən merac mövzusunun canlandırıldığı İslam miniatürlərində Hz.Məhəmmədin bu səfəri əsasən Büraqın üzərində və mələklərin müşayiəti ilə təsvir edilir (8, s.166-169).

Hədis qaynaqları ilə siyer və dəlail kitablarında isra və merac ilə bağlı bir çox rəvayət mövcuddur. Buxari və Müslimdə yer alan rəvayətlərin ortaq nöqtələrinə görə hadisə bu şəkildə cərəyan etmişdir: Bir gecə Rəsulullah Hicr və ya Xatim adlanan yerdə olarkən, bəzi rəvayətlərdə yuxuda olduğu sırada və ya yuxu ilə oyaqlıq arası bir halda Cəbrayıl gəldi; sinəsini açdı, Zəmzəmlə yuduqdan sonra içinə iman və hikmət doldurub bağladı. Büraq adlı miniyə mindirib Beytül-Məqdisə apardı. Rəsuli-Əkrəm Məscidül-Əqsada iki rükət namaz qılıb çölə çıxdığı vaxt Cəbrayıl biri süd, digəri şərab dolu iki qab gətirdi. Rəsulullah süd dolu qabı seçdikdə Cəbrayıl "Fitrəti seçdin" dedi, sonra onu götürüb dünya səmasına yüksəltdi. Səmaların hər birində sırası ilə Adəm, İsa, Yusuf, İdris, Harun və Musa peyğəmbərlərlə görüşdü; nəhayət Beytül-Mamurun olduğu yeddinci səmada Hz.İbrahim ilə görüşdü. Sidrətül-Müntəha deyilən yerə çatdıqları zaman yazan mələklərin qələm xışırtılarını duydu və Allahın hüzuruna çıxdı. Burada Cənabi-Haqq əlli vaxt namazı fərz qıldı. Dönüşdə Hz.Musa əlli vaxt namazın ümmətinə ağır gələcəyini söyləyib, Allahdan onu xəfiflətməsini istəməyi tövsiyə etdi. Namaz beş vaxta endiriləna qədər Hz.Peyğəmbərin hüzuru-ilahiyə müraciəti və Musa ilə dialoqu davam etdi (13, s.132-135).

"İsra" surəsinin ilk ayətində Allahın merac gecəsində Hz.Məhəmmədi Məscidi-Haramdan Məscidi-Əqsaya qədər aparılması bildirilsə də, həmin ayədə bu səfərin Büraqla olduğuna dair hər hansı bir işarə yoxdur. Cəbrayılın da müşayiət etdiyi və İslami qaynaqlarda "İsra" və "Merac" deyə adlandırılan bu gecə səfəri hədislərə görə, Büraq deyilən bir miniklə həyata keçmişdir. Qaynaqlar bu miniyin ağ rəngli və fövqəladə sürətli olduğunu, qatırla eşşək arasında bir quruluşa sahib olduğunu bildirirlər. İsra hadisəsini anladan hədislərin bir qismində Büraqın yuxarıda göstərilən xüsusiyyətlərindən başqa, uzun qulaqları və budlarına bitişik iki qanadının olduğu, bu qanadları sayəsində bir addımda gözünün görə bildiyi ən uzaq məsafəni qət etdiyi də qeyd olunmuşdur (11, s.417). "Parıldamaq, şimşək çaxmaq" mənasına gələn "Büraq" ərəb dilindəki bərq (البرق) sözündən qaynaqlanır.



***Merac."Siyeri-Nəbi".***
***(Dublin, Cester Bitti Kitabxanası, 406).***

Meracın İslam sənət və ədəbiyyatında tutduğu yer Hz.Peyğəmbərin möcüzələrindən biri kimi dəyərləndirilir. Merac zamanı xüsusi vəzifə daşıyan Büraq da fövqəladə bir hal kimi qəbul edilir. Hz.Peyğəmbərin möcüzəsi hesab edilən merac mövzusuna müraciət edən miniatür rəssamları Büraqın da təsvirinə xüsusi diqqət ayırmışlar.

İslam miniatür sənətində Siyer-i Nəbi, Qısas-ı Ənbiya, Meracnamələr, divan, xəmsə və məsnəvilərdə, əcaibü-l məxluqatlarda, falnamələrdə, Xavərnamə və Həmlə-i Heydəri kimi bir çox əlyazma kitablarında merac mövzulu miniatürlərə rast gəlinir. Merac miniatürlərinin formalaşmasında sənətkarın mövzu ilə bağlı hadisələri anlamaq və interpretasiya etmək bacarığı ilə yanaşı dövrün və bölgənin kompozisiya, rəsm, naxış, rəng kimi amillərdəki identikliyi də öz təsirini buraxmışdır.

Sufi ənənələrinə sadiq müəlliflər adətən Allaha və Peyğəmbərə mədhiyyə bölümündə meracdan bəhs edər, miniatürist rəssamlar da merac səhnələrini sevərək təsvirləndirərdilər.

Simvola çevrilmiş merac təsvirləri fərqli ədəbi əsərlərdə də yer alır ki, bunların başında Nizaminin "Xəmsə"si gəlir.

Nizami "Xəmsə"sinin ilk bölümü olan "Məxzənü-l əsrara"a başlayarkən Hz.Peyğəmbərdən və meracdan danışılır. Nizami "Xəmsə"sinin demək

olar ki, hamısında ilk miniatür merac təsviridir. Nizamidən sonra gələn şairlərdən, xüsusilə Caminin əsərlərində də simvola çevrilmiş merac təsvirləri yer alır. Molla Caminin "Divan", "Həft əvrəng" (Yeddi taxt) və "Yusif-ü Züleyxa"sının bəzi nüsxələrində də merac təsvirləri vardır (12, s.214).

Peyğəmbər mövzusu İslam miniatür sənətkarlarının ən çox müraciət etdikləri mövzulardandır. Qeyd etmək lazımdır ki, miniatür rəssamları Hz.Məhəmmədin üzünü cizgilərlə deyil, işıq effekti ilə, nur şəklində çəkmişlər. Bu da islami dəyərlərinin sənətdə də qeyd-şərtsiz öz əksini tapmasına dəlalət edir.

**Nəticə**

Miniatür İslam dünyasında rəsmin təmsilçisidir. Miniatür rəsm yalnız dekorasiya xüsusiyyəti daşımır, o, eyni zamanda geniş interpretasiya gücünə malikdir. Əgər İslam sənətində təsvir/surət/fiqur bütünlükdə ortadan qalxmış olsa idi, təzyinat yalnız həndəsi formalar və bitki mənşəli bəzəmələrdən ibarət olaraq qalardı.

Ernst Kühnel müsəlman sənətkarın insan rəsmini çəkmək xüsusunda az-çox bir qorxu duyduqlarını, bu vəziyyətin də rəsmin texnikası və estetik inkişafında təsirsiz ötüşmədiyini və beləliklə də rəsm ortadan qalxmasa da, təzyini bir mahiyyət aldığını qeyd edir (7, s.2; 6, s.4). Amma həqiqətdə bu belə deyildir. İslam dünyasında rəssamlıq miniatür sənətinin fonunda identikliyini qoruyaraq inkişaf etmişdir. Burada məqsəd rəsmin orijinalda olduğu kimi görünməsi deyil, fikrin, ideyanın orijinallığı və onu seyircisinə çatdıra bilmək bacarığıdır. Maraqlısı budur ki, XIX əsrin sonu, XX əsrin əvvəllərindəki Qərb rəssamlıq məktəblərinə İslam miniatür sənətinin təsir buraxdığını görürük.

## ƏDƏBİYYAT


1. And Metin. (2015) Minyatürlerle Osmanlı-İslam Mitolojisi. 5. Baskı, İstanbul: Yapı kredi yayınları.
2. Çam Nusret. (1994) İslamda sanat, resim ve mimari. Ankara: Elektronik İletişim Ajansı Tesisleri.
3. Həsənzadə Cəmilə. (2014) Təbrizin sehirli nağılları. Bakı: IRS Publishing House.
4. İlmihal II. (2000) İslam ve Toplum. İstanbul: Divantaş.
5. Koç Turan. (2008) İslam estetiği. İstanbul: İSAM yayınları.
6. Kühnel Ernst. (1952) Doğu İslam memleketlerinde minyatür. Ankara: Ankara Üniversitesi İlahiyat Fakültesi yayınları, Türk Tarih Kurumu Basımevi. Çevirenler: Suut Kemal Yetkin, Melahat Özgü.
7. Kühnel Ernst. (1922) Miniaturmalerei im Islamischen orient. Berlin: Bruno Cassirer Verlag.
8. Mahir Banu. (2012) Osmanlı Miniatür Sanatı. İstanbul: Kabalcı Yayıncılık.
9. Mahir Fatma Banu. (2013) Minyatür Sanatı. / İslam sanatları tarihi. 6. baskı, Eskişehir: Anadolu Üniversitesi Yayınları.
10. Nemətzadə Səbinə. (2017) Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər. Bakı: Elm və Təhsil.
11. Öz Mustafa. (1992) Burak. / İslam Ansiklopedisi. Cilt: 6, İstanbul: Türkiye Diyanet Vakfı yayınları, İSAM.
12. Tasvir: teori ve pratik arasında İslam görsel kültürü. (2016) Editörler Nicole Kançal-Ferrari, Ayşe Taşkent. İstanbul: Klasik.
13. Yavuz Salih Sabri. (2005) Mi'rac. / İslam Ansiklopedisi. Cilt: 30, İstanbul: Türkiye Diyanet Vakfı yayınları, İSAM.

## *РЕЗЮМЕ*

***Сабина Нейматзаде***

### *Тема пророка в исламском миниатюрном искусстве*

***Ключевые слова:*** *Ислам, Коран, миниатюра, рукопись, пророк, Мирадж (Вознесение).*

В исламском мире живопись развивалась на фоне миниатюрного искусства, сохраняя свою идентичность. Цель здесь не в том, чтобы картина выглядела так, как она есть в оригинале, а в оригинальности идеи и возможности донести ее до своей аудитории.

В исламском искусстве миниатюры религиозно-философская идея развивалась в свете Священного Корана и хадисов. Также в этом искусстве широко отражены создание Вселенной, пророки в трех великих священных книгах, Коране, Торе и Библии, их чудеса, важные события, связанные с ними, такие сцены, как Судный день, рай и ад, халифы, имамы и связанные с ними темы. В статье рассматривается место в искусстве миниатюры тема Пророка (Мир ему и благословение) и его Вознесения (Мирадж).

Автор привлек к исследованию рукописи на эту тему, хранящиеся в мировых музеях и библиотеках, также попытался проанализировать взгляды восточных и западных ученых на проблему живописи в исламе.



## *SUMMARY*

***Sabina Nematzade***

### *The Theme of the Prophet in Islamic Miniature Art*

***Keywords:*** *Islam, the Holy Quran, miniatures, manuscripts, messenger, Mi'raj (Ascension).*

In the Islamic world, painting developed against the backdrop of miniature art, while maintaining its identity. The goal here is not that the picture looked like, as it is in the original, but in the original idea and the possibility to bring it to its audience.

In the Islamic art of miniature, the religious and philosophical idea developed in the light of the Holy Quran and hadiths. Also in this art widely reflected the creation of the universe, the prophets in the three great holy books, the Koran, Torah and the Bible, their miracles, important events associated with them, scenes such as the Day of Judgment, heaven and hell, caliphs, imams and related topics. The article examines the place in the art of miniature of the theme of the Prophet (peace and blessings be upon him) and his Ascension (Miraj).

The author attracted to the study the manuscripts on this topic stored in world museums and libraries, and also tried to analyze the views of Eastern and Western scholars on the problem of painting in Islam.